# General Səməd bəy Mehmandarovun 160 illiyi qeyd olundu



Mingəçevir Dövlət Universitetində General Səməd bəy Mehmandarovun 160 illiyi münasibətilə elmi konfrans keçirilib. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı giriş sözü ilə açan universitetin tərbiyə işləri üzrə prorektoru, dosent Rövşən Əliyev konfrans iştirakçılarını rəhbərlik adından salamlayıb. General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2015-ci il tarixli 1428 saylı Sərəncamını və Azərbaycan Respublikası təhsil nazirinin 20 oktyabr 2015-ci il tarixli 1012 nömrəli əmri ilə təsdiq edilmiş Tədbirlər Planı haqqında məlumat verdi.

R.Əliyev 2015-ci ildə görkəmli hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, general Səməd bəy Sadıq bəy oğlu Mehmandarovun anadan olmasının 160 illiyinin tamam olduğunu vurğuladı. General Səməd bəy Mehmandarovun döyüş meydanlarındakı yüksək peşəkarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazdığını bildirdi. R.Əliyev qeyd etdi ki, Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən ordu quruculuğu prosesinin bütünlüklə milli zəmin üzərində həyata keçirilməsi, hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, hərbi təhlükəsizliyinin layiqincə təşkil edilməsi məhz onun fəaliyyətinin nəticələridir.

Sonra humanitar fənlər kafedrasının baş müəllimi İlham Məmmədov “General Səməd bəy Mehmandarov Azərbaycan tarixinin parlaq şəxsiyyətidir”, İbtidai sinif müəllimliyi ixtisasının IV kurs tələbəsi İlahə Nağıyeva “Generalın taleyindən səhifələr”, Azərbaycan dili və ədəbiyyatı ixtisasının IV kurs tələbəsi Könül Rəhimova “Generallığa aparan yol” mövzularında məruzə etmişlər. Natiqlər müharibə şəraitində yaşadığımız indiki dövrdə qəhrəmanlıq ənənələrinin təbliği, sərkərdələrin yubileylərinin dövlət səviyyəsində təşkilinin mühüm əhəmiyyət kəsb etdiyini qeyd ediblər. Ata-babalarımızın qəhrəmanlıq ənənələrinin gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını vurğulayıblar.

General Səməd bəy Mehmandarovun qəhrəmanlığını əks etdirən video çarx nümayiş olunub. “Dəyirmi masa” ətrafında müzakirə davam etdirilib.

Sonra Xarici dil müəllimliyi ixtisasının IV kurs tələbəsi İlahə Hüseynova “Düşmən təslim olmayanda” şeirini söyləyib.

Sonda çıxış edən universitetin tərbiyə işləri üzrə prorektoru, dosent Rövşən Əliyev bir daha möhtərəm Prezident cənab İlham Əliyevə hərb tariximizə göstərdiyi diqqət və qayğıya görə konfrans iştirakçıları adından dərin minnətdarlığını bildirib, Silahlı Qüvvələrin şəxsi heyətinin hər an Ali Baş Komandanın əmrlərinə hazır olduğunu vurğulayıb.

**Nazim NİFTƏLİYEV,**
**Mətbuat xidmətinin rəhbəri.**